Tarixi yerlərimiz

# Xocavənd yenidən qurulur, abadlaşır

## Tuğ və Hadrutda turizm informasiya mərkəzi fəaliyyət göstərəcək

**Azərbaycanın qeyri-neft sektorunda ən əvvəl öz təbii artım potensialına malik, daxili imkanlar və xarici investisiya hesabına formalaşan, eləcə də yüksələn xətlə inkişaf edərək həm yeni iş yerlərinə ehtiyacı qarşılayan, həm də gəlir gətirən sahələrdən biri turizmdir.**





Eyni zamanda çoxsaylı xarici qonaqlar vasitəsilə düşmənin yalan və dezinformasiyalarına son qoymaq, həqiqətlərimizi beynəlxalq aləmə çatdırmaq mümkündür. Ölkəmizin bütün ərazilərində, o cümlədən 30 illik işğaldan azad olunub əsl sahiblərinə qovuşan Qarabağda və Şərqi Zəngəzurda turizmin bütün növlərinin tərəqqisi istiqamətində qərarlar verilir, konkret addımlar atılır.

Xocavənd rayonu da məhz belə zəngin, unikal, füsunkar məkanlardandır. Heç də təsadüfi deyil ki, dövlət və hökumətimizin tövsiyə, maliyyə dəstəyi və qayğısı, eləcə də Dövlət Turizm Agentliyinin təqdim etdiyi konseptual yanaşma çərçivəsində burada üç istiqamətdə - tarixi-memarlıq üslubunu qorumaqla mədəni turizmin inkişafı, təbiət resurslarından səmərəli istifadə ilə ekoturizm və "yaşıl destinasiya" konseptində turizm sənayesinin tərəqqisi və aqroturizm resurslarından bəhrələnməklə dayanıqlı və icma əsaslı turizm inkişaf konsepsiyası üzrə layihələrin həyata keçirilməsi planlaşdırılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın cari il mayın 5-də Xocavənd rayonuna səfərləri zamanı da bu məsələyə toxunulub. Adıçəkilən bölgədə reallaşacaq turizm layihələri barədə məlumat verən agentliyin sədri Fuad Nağıyev bildirib ki, ilk mərhələdə Tuğ kəndində keçmiş məktəb binası olmuş yaşayış korpusunun konservasiyası nəzərdə tutulur. Kəndin tarixi memarlığı dərindən öyrənildikdən və kifayət qədər yerli memarlıq üslubunda elmi-tədqiqat və elmi təhlillər, praktiki təcrübə qazanıldıqdan sonra bu abidənin bərpası reallaşa bilər. Tuğda işğal dövründə ənənəvi Azərbaycan memarlığına çox müdaxilə edilib və bəzi tikililər açıq-aşkar vandalizmə məruz qalıb. Buna görə də ilkin olaraq ümumi sahəsi 1464 kvadratmetr olan tikililərin konservasiyası və konsolidasiyası işləri ilə yanaşı, 6515 kvadratmetrlik ətraf ərazinin abadlaşdırılması nəzərdə tutulur. Bundan başqa, kəndin mərkəzi hissəsində yerləşən, ümumi sahəsi 450 kvadratmetr olan mövcud tarixi tikililərin bərpa edilərək Turizm İnformasiya Mərkəzi və şərab dequstasiya yeri kimi istifadə ediləcək. Kənddə gələcəkdə turizm axını ilə əlaqədar keyfiyyətli xidmətlərin göstərildiyi iaşə obyektləri də yaradılacaq.

Xocavənd və Füzuli rayonlarının üzüm sahələrindən toplanan məhsuldan alınan şərabları ilə də məşhur olub. Şərab zavodunun ümumi sahəsi 1300 kvadratmetrdir və onun ətrafındakı 850 kvadratmetrlik sahənin abadlaşdırılması nəzərdə tutulur. Zavod üçün müasir turizm konsepti tətbiq ediləcək. Belə ki, bura yalnız şərab istehsal edilən yer deyil, həmçinin tarixən mövcud olmuş şərabçılıq ənənəsinin nümayiş olunduğu məkana çevriləcək. Kompleksin tərkibində müxtəlif tədbir və festivalların keçirilməsi üçün çoxtəyinatlı yerlər olacaq. Kulinariya Təlim Mərkəzində təkcə Qarabağın yox, bütün Azərbaycan mətbəxi turistlərə təbliğ və eksperimental kulinariya metodları kimi təqdim ediləcək. Tuğun Şuşa yolu üzərində vacib turizm destinasiyası faktı nəzərə alınaraq, burada avtomobil dayanacağı da yaradılacaq. Tarixi tikililər, küçələr, hasar və darvazalar ənənəvi memarlıq üslubunda bərpa və konservasiya olunacaq. Görüləcək işlərin planına həmçinin ərazidə mövcud tarixi bulaqların bərpası, küçə boyunca hasar və tikililərin təmiri də daxildir.

Turizm sahəsində görüləcək işlərə Tuğun tarixi memarlıq üslubunu saxlamaqla mədəni turizmin dirçəldilməsi, zəngin təbiətə istinadla ekoturizmin inkişafı, aqroturizm potensialı üzrə layihələr daxildir. Bu barədə Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin idarə heyətinin sədri Murad Ağabəyli bildirib. İlkin mərhələdə yaşayış məntəqəsinin tarixi hissəsində turizm infrastrukturunun yaradılması istiqamətində işlər görülür. Növbəti mərhələdə kənd məktəbinin, Məlik saray kompleksinin bərpa edilməsi qərara alınıb. Tuğun tarixi memarlıq üslubuna gəldikdə, burada da görüləsi işlər çoxdur. Çünki binaların və tarixi abidələrin əksəriyyəti erməni vandalizminə məruz qalıb. İşğal dövründə bir çox abidələrimizin tarixi görkəmi dəyişdirilib. Biz xarici və yerli ekspertlərin birgə səyləri ilə həmin abidələri yenidən araşdıracağıq və onları ilkin tarixi görkəminə qaytaracağıq. Hadrut turizminin bərpası üzrə tarixi hissədə yerləşən qədim Alban məbədinin ətrafındakı üç evlə birlikdə vahid kompleks şəklində bərpası nəzərdə tutulur. Digər abidələrimiz kimi erməni vandalizminə məruz qalan məbəd tarixi görünüşünü itirib. Ermənilər məbədi özününküləşdirmək üçün bir çox dəyişikliklər ediblər.

Hazırda Hadrut qəsəbəsində investisiya hesabına məscidin və fərdi yaşayış evlərinin tikintisi davam etdirilir. Torpaq söküntü işləri artıq bitib, 30 fərdi yaşayış evinin yenidən bərpası, eyni zamanda məktəb və bağçanın, klub icma mərkəzinin, müxtəlif ictimai iaşə binalarının tikintisi üzrə işlər aparılır.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*